* * *

Bir kökdən gəlib min budaq olan, dünyanın elm, ədəbiyyat, mədəniyyət xəzinəsini saysız-hesabsız əsərlərlə, dahiyanə sənət zirvələri ilə zənginləşdirən ulu Türk, Orxon-Yenisey bölgəsində daşa yazdığın tarixini xatırlayırsanmı? Tarix boyu Tanrı dağın ətəklərində, Təklə-Məkan səhrasında, Qobidə, Turfanda, Orta Asiya - Türküstan ellərində, Avrasiyanın cilovsuz çöllərində, yovşan ətirli Dəşti-Qıpçaqda Attila, Alp Ər Tonqa, Oğuz xaqanlar qüdrətiylə ucaldığın əlçatmaz, ünyetməz zirvələr yadındadırmı? Ərgənəkon misallı ilk beşiyin, dəfələrlə gedib-qayıtdığın beş min illik dövlətçilik yerin-yurdun, ana ruhun, əzəli məskənin Azərbaycanda, Anadoluda ayaq basdığın hər qarış torpaq səninlə türk dilində - Azərbaycan dilində danışır - eşidirsənmi? Dahi azərbaycanlı Nizami Gəncəvinin "Ərəb çuxalı türk" adlandırdığı ulu səma elçisi Məhəmməd peyğəmbər "Türklər sizə toxunmayınca, çəkinin, onlara toxunmayın. Hümmətimin idarəsi axırda türklərin əlinə keçəcəkdir" dedi - fəxr edirsənmi bununla? Bədii düşüncəmizin hüdudu, sözümüzün son sahili, poeziya peyğəmbəri Bayatlı Süleyman oğlu Məhəmməd Füzulini, qılınc və qələm dahisi Şah Xətaini özünə dünyəvi dayaq nöqtəsi, qəlbinin qibləsi bilirsənmi? Zaman-zaman unutduğun hu-hu nidalı çağırış səslərini yenidən eşit! Eşidə bilirsənmi?..

Vətənin dağlarını, düzlərini, çəmən-çöllərini əsl övlad sevgisiylə, göz-könül xoşluğuyla gözə-gözə qəlbinlə görür, ruhunla duyursan; yaz çiçəklərinin min bir naxış dünyası pıçıldayır bu sirli-sehirli sualları, gözü nəmli nidaları... Dəli-dolu dağ dolaylarında qəfildən yovşan ətrinin sirri-xuda xatirələr dünyasına düşürsən; ruhunda qədimlərdən qədim bir rəvayətin küləkləri əsir...

Belə deyirlər ki, qədim zamanlarda bir igid kəndindən küsüb uzaqlara gedir. El-oba yığışıb ha məsləhət-məşvərət edirlər, xahiş-minnət elçiləri göndərirlərsə, igid geri qayıtmır. İllər belə ötüb keçirmiş. Axırda Dədə Qorqud misallı bir qoca deyir ki, mən bilirəm o igidi öz kəndinə necə qaytarmaq olar; kəndimizin yamacındakı yovşandan bir çəngə yığıb göndərin ona...

Qocanın dediyi kimi edirlər. Və qürbətdə vətən yovşanını iyləyən-qoxlayan igid qəfildən hönkürür, yovşan ətrinin xatirə yollarında öz elinə-obasına qayıdır...

* * *

Ümiddi, inamdı, zamanın bakirə vədəsi, təbiətin ilk qələbəsidi yaz çiçəkləri. Ümidlərimizin heykəli kimi ucalan dağlarımızın sinəsindən başlayar dünyanın novruzgülü uğuru, bahar təzəliyi. Torpağımıza ağappaq çiçək yağışları yağar. Torpaq zərrə-zərrə, çiçək-çiçək diksinib qış yuxusundan, əcəl qaranlığından oyanar. Yaz çiçəklərinin ağappaq işığından, isti, kövrək təbəssümündən, körpə uşaq əlləri kimi təmizliyindən, halallığından başlayar yaz çiçəkləri. Ellərimiz, obalarımız baharın bu möhtəşəm çiçək busatını həsrətlə, ümidlə, sevinclə gözlər, könül xoşluğu, duyğu xoşbəxtliyi ilə qarşılayar. Təsadüfi deyil ki, qədim zamanlardan baharda təzə geyinmək, xüsusilə, uşaqları təzə paltarla sevindirmək ellərimizdə adət olub. Bu adətlə Azərbaycan milli geyimləri min illər boyunca yaz çiçəklərinin, bahar sevinclərinin tilsimindən keçib. Xalqın qədim inamları, güvəncləri olan totemlər, miflər dilə gəlib, bənövşə boylu butalarla, alov xatirəli yaz çiçəkləri ilə qovuşub. Beləcə, milli geyimlərimizin, xalı-xalçalarımızın, "Qüdrətdən səngərli qalalı dağlarımızın" rəng dünyasına yaz çiçəklərinin, bahar güllərinin yurd şəfəqi, vətən işığı düşüb...

* * *

Sonra şəhid qanıyla suvarılan göynəmli göylərin, doğma yurd yerlərinin heyrətlə açılan günəş baxışları, lalə-lalə gözləri qan çanağına dönmüşdü. Dədə Qorqudun, Qaraca çobanın ruhu dolanan Nərgiztəpədən sehrli səs, qəfil qışqırıq gəldi: Çal qılıncını, ağam Qazan, Vətən oğlu, yetdik!

Üçrəngli, Ay-ulduzlu bayrağın müqəddəs ucalığı üçün qəribsəyən Lələtəpə əsgər kimi dik durdu: Çal qılıncını, ağam Qazan, burdayam!

Qarabağın Bayat, Şuşa, Şahbulaq, Əsgəran, Koroğlu qalalarının qəlbi-qanı qaynadı, ruhu qiyam qaldırdı: Çal qılıncını, ağam Qazan, gəldik!...

Yaralı Azərbaycan əsgəri bu səsləri qəlbinin döyüntüsü, qanının axışı kimi eşitdi, xoşbəxtliyin ilahi badələrini için-için Attilalar, Alp Ər Tonqalar, Xətailər qüdrətiylə ayağa qalxdı, "Mübariz" adlı silahı qaldırıb namərd düşmənləri alaq otları kimi biçib tökdü...

Sonra peyğəmbər adaşı bir şair gözləri lalə-lalə qan çanağına dönədönə pıçıldadı:

*Ey şəhid oğlu şəhid,*
*istəmə məndən məqbər,*
*Sənə ağuşunu açmış*
*duruyor peyğəmbər.*

Sonra göylərin tanrısal təbəssümü yaz çiçəkləri kimi dil açdı:

- Niyə dayandın? Gəl...

Və peyğəmbərin ağuşuna sığınan şəhid Şuşanın həsrətkeş yollarına, Qarabağın dumanlı dağlarına, Üzeyirin, Natəvanın, Bülbülün güllələnmiş heykəllərinə baxa-baxa dilləndi:

- Gələ bilmirəm; bu dünyada başa çatmayan yolum, qələbə andımda qisasım qalıb...

Və şəhid qanının şahanə şövqünə kəlmeyi-şəhadət gətirən yazın yaddaş çiçəkləri heç vaxt belə bəxtəvər olmamışdı...

Və mənə elə gəlir ki, yaz çiçəklərinə yazılan bu yazı bulaqlar kimi qaynayar, çaylar kimi axıb gedər, damarlarında qan kimi, qan-gen yaddaşı kimi dövr edər, duyğu dolayları kimi üfüqlərdən-üfüqlərə adlayar, zamana qalib gələr, bitməz ki, bitməz...

**Ədəbiyyat qəzeti.- 2017.- 11 mart.- S. 23.**